**Son illərin, xüsusən son iki ilin, demək olar ki, hər günü, uğurlarla, qələbə və zəfərlərlə tarixə çevrilir. 2020-ci ildən dünyanı cənginə alan və ölkəmizdən də yan ötməyən koronavirus pandemiyasına, onun bir sıra fəsadlarına baxmayaraq, dövlətimiz ayaq üstə möhkəm dayanmaqda, istər "gizli düşmən"ə, istərsə, açıq düşmənə boyun əyməməkdə, əksinə, hər biri üzərində zəfər çalmaqda davam etməkdədir. İkinci Vətən müharibəsi, cəmi 44 günə 30 illik münaqişəyə son qoyulması, Zəfər Paradının keçirilməsi, işğaldan azad olunmuş ərazilərimizə səfərlər, tarixi əhəmiyyətli açılışlar, təməlqoymalar, festivallar, poeziya günləri, Şuşa Bəyannaməsi, "Böyük qayıdışı"n ilk və möhkəm təməllərinin qoyulması və sair. Bunların hər biri zəfər salnaməmizin uğurlu və ardıcıl davamıdır. Qazandığımız qələbələrin əsas müəllifi isə ölkə Prezidenti, qalib sərkərdə, müzəffər Ali Baş Komandan İlham Əliyevdir.**

# Azərbaycan ədalətli mövqe nümayiş etdirir



Möhtərəm Prezidentimiz Azərbaycan dövləti və xalqımız ilə hər gün, hər an tarix yazır və yaradır. Hər müstəvidə Azərbaycanın milli maraq və mənafelərini ləyaqətlə, şərəflə qoruyur, təmin edir. Ölkə Prezidenti bugünlərdə qonşu Rusiyanın, Soçi şəhərinə səfər edərək, öncə Rusiya Federasiyasının Prezidenti Vladimir Putinlə bir araya gəldi, sonra isə Rusiya lideri və Ermənistanın baş naziri ilə üçtərəfli görüşdə iştirak etdi. O, bir daha öz lider qabiliyyətini, cəsarətini, Azərbaycanın milli maraqlarının vazkeçilməzliyini dünyaya nümayiş etdirdi. Bir daha hər kəsin gözü qarşısında tarix yazdı.

Bəli, Azərbaycan ona qucaq açan, onunla bərabərhüquqlu tərəfdaş kimi davranan hər bir dövlətlə ikitərəfli münasibətlərə, əməkdaşlıq əlaqələrinə daim böyük önəm verib və bu gün də öz kursuna sadiqdir. Bu gün də gizli və açıq düşmənlərə hər müstəvidə sarsıdıcı, öldürücü zərbələr vurulmaqdadır. Azərbaycan qonşu Rusiya ilə əməkdaşlıq və tərəfdaşlıq münasibətlərinə öz sadiqliyini nümayiş etdirib və etdirir

Heç təsadüfi deyil ki, Azərbaycan və Rusiya liderlərinin Soçi görüşündə də vurğulandığı kimi, ölkəmizdə Rusiyanın 900 müəssisəsi işləyir. Azərbaycan iqtisadiyyatına Rusiya tərəfindən 4,5 milyard dollar birbaşa investisiya qoyulub. Rusiya Azərbaycanın aparıcı iqtisadi-ticari tərəfdaşlarından biri olaraq qalır. Humanitar əlaqələr də məhz bu fonda davam edir. O cümlədən, ölkəmizdə rus dilinin inkişafına, dəstəklənməsinə böyük önəm verilir. Təxminən 340 məktəbdə rus dili tədris edilir. Məktəblilərimizin 34 faizi bu və ya digər şəkildə rus dilində oxuyur və bu dili öyrənirlər. Bu, Azərbaycanın əməkdaşlıq və tərəfdaşlığına nə dərəcədə sadiq olmasının əyani təcəssümüdür və geniş izahata da ehtiyac yoxdur.

Görüş zamanı "Azərbaycan tələbələrinin Rusiyada təhsil almaları üçün gözəl şərait yaradılıb. Bu səfərdən əvvəl son məlumatları gözdən keçirdim, 15 mindən çox azərbaycanlı, Azərbaycan vətəndaşı Rusiyanın ali məktəblərində təhsil alır. Əslində, bu, bütöv bir ali məktəb deməkdir. Burada çox yaxşı təhsil verilir və bu, avtomatik olaraq ölkələrimiz arasında körpü olur" – deyən Azərbaycan Prezidenti isə öz növbəsində, onu da qeyd etdi ki, münasibətlərin inkişafı işində geridə qalan həftə çox əlamətdar olub. Belə ki, Rusiya Federasiyası hökuməti sədrinin müavini, o cümlədən Rusiya Elmlər Akademiyasının prezidenti ali səviyyədə qəbul edilib. Rusiyanın humanitar əməkdaşlıq üzrə xüsusi nümayəndəsi Azərbaycanın və Ermənistanın intellektualları, mədəniyyət xadimləri arasında Rusiya tərəfin fəal iştirakı ilə əlaqələrin nizamlanması kimi çox mühüm bir missiya ilə bütün həftə ərzində Bakıda olub. Həmçinin, bu yaxınlarda Rusiyanın ixrac mərkəzi və "Roseksimbank"ın iştirakı ilə böyük biznes konfransı keçirilib. Bu konfransda Rusiyanın 30-dan çox şirkəti iştirak edib.

Yəni, son bir həftələr bizim qarşılıqlı fəaliyyətimizin istiqamətlərinin yalnız bir hissəsini səciyyələndirmək üçün kifayət qədər əlamətdardır. Təbii ki, həm Rusiya lideri ilə görüşdə, həm də üçtərəfli görüşdə ana xətti Qarabağ münaqişəsinə son qoyulmasından sonrakı, yəni, postmüharibə dövründə görülən və görüləcək işlər təşkil etdi.

Prezident İlham Əliyev bir daha öz qətiyyətini göstərərək, postmüharibə dövründə də Azərbaycanın milli maraqlarından geri çəkilməyəcəyini nümayiş etdirdi: "Ən başlıcası, mübahisələrin, fikir ayrılıqlarının nizamlanması işində qəbul etdiyimiz qərarlar, zənnimcə, Cənubi Qafqazda vəziyyətin daha təhlükəsiz və proqnozlaşdırıla bilən olmasına şərait yaradacaq. Vladimir Vladimiroviçin qeyd etdiyi kimi, humanitar xarakterli məsələlər də müzakirə edilib. Azərbaycan həmişə – istər döyüş əməliyyatları dövründə, istər onlardan sonra – bütün humanitar normalara riayət edilməsinə ardıcıl tərəfdar olub"– deyən Azərbaycan Prezidenti bir daha diqqətə çatdırdı ki, hərbi əməliyyatlar bitəndən sonra saxlanılmış 100 nəfərdən çox erməni hərbi qulluqçu, o cümlədən bir nəfər bu gün səhər Ermənistan tərəfə verilib. Yaralanmış hərbi qulluqçuya azərbaycanlı həkimlər tərəfindən tibbi yardım göstərilib, bir nəfər mülki şəxs yolu azaraq bizim əraziyə keçib".

Yəni, Ali Baş Komandanın vurğuladığı kimi, biz həmişə humanizm prinsiplərinin aliliyini əsas götürmüşük və bundan sonra da işi bu istiqamətdə davam etdirmək niyyətindəyik. Biz Ermənistan tərəfindən də regionda vəziyyətin daha artıq dərəcədə proqnozlaşdırıla bilən olması üçün şərait yaradılması niyyətini görürük.

Dəfələrlə demişik, ali səviyyədə bəyan etmişik ki, biz Azərbaycanda Ermənistan ilə çoxillik qarşıdurma səhifəsini çevirmək, normal qarşılıqlı fəaliyyət mərhələsinə başlamaq əzmindəyik.

Azərbaycan üçün Rusiya dostdur, strateji tərəfdaşdır. Azərbaycan ilə Rusiya arasında etimada əsaslanan münasibətlərin səviyyəsi, o cümlədən ən həssas məsələlər barəsində Ermənistan ilə ortaq fikrə gəlməyimizə şərait yaradır. Düşünürük ki, üçtərəfli görüşün nəticələri, regionda vəziyyət daha təhlükəsiz və proqnozlaşdırılan olacaq.

Bəli, biz bir daha seçimimizi etdik və hər kəsə açıq şəkildə nümayiş etdirdik. Söz, qərar, düzgün addım artıq qarşı tərəfindir. Necə seçim edəcəklərsə, o cür də qarşılığını görəcəklər.

Qarabağ Azərbaycandır!

***Jalə ƏLİYEVA,***
***Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədr müavini, professor***